# MİLLETLERARASI ANDLAŞMA

**Karar Sayısı: 7642**

4 Kasım 2022 tarihinde İstanbul'da imzalanan ekli "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Aile, Kadın ve Çocuk Politikaları Alanında İşbirliği Protokolüne İlişkin Faaliyet Planı"nın onaylanmasına, 244 sayılı Kanunun 5 inci maddesi ile 9 sayılı Cumhurbaşkanlığı Kararnamesinin 2 nci ve 3 üncü maddeleri gereğince karar verilmiştir.

15 Eylül 2023

**Recep Tayyip ERDOĞAN**
CUMHURBAŞKANI

**Türkiye Cumhuriyeti Hükümeti ile**

**Azerbaycan Cumhuriyeti Hükümeti arasında**

**Aile, Kadın ve Çocuk Politikaları Alanında İşbirliği Protokolüne**

**ilişkin**

**Faaliyet Planı**

Türkiye Cumhuriyeti Hükümeti ve Azerbaycan Cumhuriyeti Hükümeti (bundan böyle "Taraflar" olarak anılacaktır.);

Bu Faaliyet Planı Türkiye Cumhuriyeti Hükümeti ve Azerbaycan Cumhuriyeti Hükümeti arasında Aile, Kadın ve Çocuk Politikaları Alanında 25 Ekim 2011 tarihinde İzmir'de imzalanan İşbirliği Protokolü çerçevesinde hazırlanmış olup,

Tarafların devletlerinin aile, kadın ve çocuk sorunlarına ilişkin politika alanında işbirliğinin sürekli gelişimini teşvik etme arzusuna dayanarak,

Faaliyet Planı'nın, iki devlet arasında bahsi geçen alanlarda eşitlik ve karşılıklı yarar temelinde işbirliğinin sürekli ve hızlı gelişimi için gerekli temeli oluşturduğuna inanarak,

Tarafların aile, kadın ve çocuklarla ilgili faaliyetlerin uygulanmasına yönelik ortak arzularından hareketle ve bu yöndeki çabaların artırılmasının önemini vurgulayarak,

Aşağıdaki hususlar üzerinde anlaşmaya varılmıştır:

Aşağıda belirtilen işbirliği faaliyetleri, bu faaliyet planının yürürlüğe girmesinden 2025 yılı sonuna kadar uygulanır.

**MADDE 1**

İşbu Faaliyet Planının yürürlüğe girmesiyle birlikte tüm faaliyetlerin koordinasyonu, izlenmesi ve değerlendirilmesi için 2023 yılı içerisinde bir çalışma heyeti teşkil edilecektir.

**MADDE 2**

Aile, kadın ve çocuklarla ilgili ortak faaliyetler için 2023 yılı içerisinde tematik çalışma grupları oluşturulacaktır.

**MADDE 3**

Türk devletlerinde aile değerlerini tanıtmak, desteklemek ve daha da güçlendirmek amacıyla "Türk Dünyası Aile Festivali" düzenlenecektir.

**MADDE 4**

Aile, kadın ve çocuk alanında düzenlenen konferans, seminer, çalıştay ve benzeri program ve etkinliklere karşılıklı katılım sağlanacaktır.

**MADDE 5**

Türkiye Cumhuriyeti Aile ve Sosyal Hizmetler Bakanlığına bağlı Çocuk Danışma Kurulu ile Azerbaycan Cumhuriyeti Aile, Kadın ve Çocuk Sorunları Devlet Komitesine bağlı Çocuk Elçiler Meclisi arasında çocuk haklarının korunması, çocukların sosyal etkinliklere katılımlarının ve liderlik niteliklerinin artırılması alanında ortak faaliyetler uygulanacaktır.

**MADDE 6**

Çocuk haklarının korunmasına yönelik uzmanlara çeşitli alanlarda eğitim verilecektir.

**MADDE 7**

Aile odaklı hizmetler, aile eğitimi, aile danışmanlığı hizmetleri ve psikososyal destek alanlarında deneyim alışverişi yapılacaktır.

**MADDE 8**

Erken çocukluk gelişimi için politikaların formüle edilmesinde deneyim alışverişi yapılacaktır.

**MADDE 9**

Kadının güçlendirilmesi konusunda iki ülke arasındaki iyi uygulamaların değerlendirildiği uzman toplantısı düzenlenecektir.

**MADDE 10**

Çocuk Koruma Mobil Ekipleri çalışmalarına ilişkin deneyim paylaşımı yapılacaktır.

**MADDE 11**

Aile, kadın ve çocuk alanlarında farkındalığı artırmak için yazılı, görsel ve dijital medyada kampanyalar yürütülecektir.

**MADDE 12**

İşbu Faaliyet Planı, Tarafların gerekli iç hukuk prosedürlerinin tamamlandığını diplomatik kanaldan ve yazılı olarak bildirdiği son tarihten itibaren yürürlüğe girecektir.

İşbu Faaliyet Planı, 25 Ekim 2011 tarihli "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti arasında Aile, Kadın ve Çocuk Politikaları Alanında İşbirliği Protokolü"nün yürürlükte olması kaydıyla, 31 Aralık 2025 tarihine kadar yürürlükte kalacaktır.

İşbu Faaliyet Planı, İstanbul şehrinde 4 Kasım 2022 tarihinde Türkçe ve Azerbaycan dillerinde ikişer nüsha halinde ve bütün metinler eşit geçerlilikte olmak üzere düzenlenmiş ve imzalanmıştır.

| Türkiye Cumhuriyeti Hükümeti adına | Azerbaycan Cumhuriyeti Hükümeti adına |
|---|---|
| Derya YANIK | Bahar MURADOVA |
| Aile ve Sosyal Hizmetler Bakanı | Aile, Kadın ve Çocuk Sorunları Devlet Komitesi Başkanı |

**Türkiyə Respublikası Hökuməti ilə**

**Azərbaycan Respublikası Hökuməti arasında**

**ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq**

**Protokolu ilə bağlı**

# Fəaliyyət Planı

Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq);

bu Fəaliyyət Planı 2011-ci il 25 oktyabr tarixində Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində İzmirdə imzalanmış Əməkdaşlıq Protokolu çərçivəsində hazırlanmışdır,

Tərəflərin dövlətlərinin ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində əməkdaşlığının daimi inkişafını təşviq etmək istəyini əsas tutaraq,

bərabərlik və qarşılıqlı fayda əsasında iki dövlət arasında sözügedən sahələr üzrə əməkdaşlığın davamlı və sürətli inkişafı üçün bu Fəaliyyət Planının lazımi zəmin yaratdığına əmin olaraq,

Tərəflərin ailə, qadın və uşaqlarla bağlı fəaliyyətlərinin həyata keçirilməsinə dair ümumi istəyinə əsaslanaraq və bu istiqamətdə səylərin artırılmasının vacibliyini vurğulayaraq aşağıdakılar barədə razılığa gəldilər:

aşağıda qeyd edilən əməkdaşlıq fəaliyyəti bu Fəaliyyət Planının qüvvəyə minməsindən 2025-ci ilin sonunadək həyata keçiriləcəkdir.

## Maddə 1

2023-cü ildə bu Fəaliyyət Planında nəzərdə tutulmuş fəaliyyətlərin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün İşçi heyəti təşkil ediləcəkdir.

## Maddə 2

2023-cü ildə ailə, qadın və uşaqlarla bağlı birgə fəaliyyətlərin həyata keçirilməsi üçün tematik işçi qrupları təşkil ediləcəkdir.

## Maddə 3

Türk dövlətlərində ailə dəyərlərinin təbliği, dəstəklənməsi və daha da gücləndirilməsi məqsədilə "Türk Dünyası Ailə Festivalı" keçiriləcəkdir.

## Maddə 4

Ailə, qadın və uşaq sahəsində konfrans, seminar, təlim və bu kimi proqram, eləcə də tədbirlərdə qarşılıqlı iştirak təmin ediləcəkdir.

## Maddə 5

Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi yanında Uşaq Məsləhət Şurası ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında fəaliyyət göstərən Uşaq Səfirlər Məclisi uşaq hüquqlarının qorunması, uşaqların ictimai fəaliyyətlərdə iştirakının və liderlik keyfiyyətlərinin artırılması sahəsində birgə fəaliyyətlər həyata keçiriləcəkdir.

## Maddə 6

Uşaq hüquqlarının müdafiəsi sahəsində mütəxəssis hazırlığı təşkil ediləcəkdir.

## Maddə 7

Ailəyönümlü xidmətlər, ailə təhsili, ailə məsləhət xidmətləri və psixososial dəstək sahəsində təcrübə mübadiləsi aparılacaqdır.

## Maddə 8

Erkən uşaqlıq dövrünün inkişafına dair siyasətin formalaşdırılması üzrə təcrübə mübadiləsi aparılacaqdır.

## Maddə 9

Qadınların səlahiyyətləndirilməsi ilə bağlı iki ölkə arasında qabaqcıl təcrübələrin qiymətləndirilməsi üzrə ekspert görüşü təşkil ediləcəkdir.

## Maddə 10

Uşaq müdafiəsi üzrə Mobil Qrupların işinin öyrənilməsi və təcrübə mübadiləsi aparılacaqdır.

**Maddə 11**

Ailə, qadın və uşaq məsələləri sahəsində məlumatlılığı artırmaq üçün çap, vizual və rəqəmsal mediada kampaniyalar aparılacaqdır.

**Maddə 12**

Bu Fəaliyyət Planı Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Fəaliyyət Planı 2011-ci il 25 oktyabr tarixində Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində imzalanmış Əməkdaşlıq Protokolunun qüvvədə olması şərti ilə 2025-ci il 31 dekabr tarixinədək qüvvədə qalacaqdır.

Bu Fəaliyyət Planı İstanbul şəhərində 4 noyabr 2022-ci il tarixində hər biri Türk və Azərbaycan dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

| Türkiyə Respublikası Hökuməti adından | Azərbaycan Respublikası Hökuməti adından |
| --- | --- |
| Derya YANIK<br>Ailə və Sosial Xidmətlər naziri | Bahar MURADOVA<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri |